# İgidlik və şücaət nümunəsi

**İkinci Qarabağ müharibəsində Vətənin hər qarışını öz qanı, canı ilə alınmaz qalaya çevirən şəhidlərdən biri də Tamerlan Xankişi oğlu Süleymanovdur.**

Tamerlan Süleymanov 1992-ci ildə Lerik rayonunun füsunkar təbiətli, qartallı qayaların ətəyində qərar tutmuş, Tikəband kəndində anadan olmuşdur. Süleymanovların halal ailə ocağında boy verən 13 uşağın sonbeşiyi olub. Hələ kiçik yaşlardan həyat onu sınaq qarşısında qoyur. 9 yaşında anasını, 16-a çatmamış isə atasını itirir. Böyük qardaşı Habilin himayəsi ilə böyüyür. Amma gələcəyə ümid, nikbinlik ovqatında baxır.

Tamerlan ordu sıralarına yola düşəndə qardaşını əmin edir ki, Vətənə ləyaqətlə xidmət edib onun yanına üzüağ dönəcək. Belə də olur. Əsgərlikdə olduğu müddətdə xalqına bağlılığı, vətənpərvərliyi, sədaqəti ona yalnız hörmət gətirir. Habil şəhid qardaşı haqqında deyir: - Həqiqi hərbi xidməti başa vurub evə gəldi. Uşaq vaxtından zəhmətə alışdığı üçün tez də özünə iş tapa bildi. Həddən artıq ürəyiaçıq, istiqanlı idi. Yalanı, haqsızlığı heç sevməzdi. 2015-ci ildə Tamerlana toy etdim. Müqəddəs Qarabağın erməni dığalarının ayaqları altında qalmasına dözmürdü. Düşməndən qisas alacağı günü gözləyirdi. Odur ki, ailəsini bizə tapşırıb könüllü hərbi xidmətə getdi. Bizə dedikləri də belə oldu: "Gedirəm. Hər şey, hətta ölüm də ola bilər. Çünki düşmən Qarabağdan çıxmaq istəmir. Vətən, torpaq uğrunda ölüm əsl mənada şərəfdir. Mən belə bir ölümlə bütün nəslimizin adını ucaldaram". Demə bu günə hazırlaşır... MAXE kimi işlədi. Nümunəvi xidmətini nəzərə alıb ona gizir rütbəsi verildi. Qorxmazlığı, qeyrəti komandirlərini, tabeliyində olan əsgərləri çox sevindirirdi.

Köksündə Vətən sevgisi, qəlbində millət eşqi gəzdirən Tamerlan ötən ilin 27 sentyabr ayından başlayan İkinci Qarabağ müharibəsində axıra qədər vuruşmaq və qələbə qazanmaq niyyəti ilə birinci gedir. Döyüşlərdə igidliyinə görə fərqlənir. Düşmənin xeyli sayda canlı qüvvəsini, texnikasını məhv edir. Oktyabr ayının 29-da Füzuli rayonu uğrunda gedən haqq savaşımızda Vətənin şərəfi naminə qəhrəmancasına canından keçir. Dağlar diyarı Lerikdən köçüb getdiyi Xəzər rayonunun Binə qəsəbəsində şəhidlər üçün ayrılmış qəbiristanlığında torpaq öz igid oğlunu yaşatmaq üçün bağrına basır. Dövlət tərəfindən isə "Vətən uğrunda", Füzulinin, Cəbrayılın azad olunmasına görə medallarına layiq görülür.

İndi Vətən boyda şəhidin saf və müqəddəs ruhu uca göylərə qalxıb. Özü də şaddır. Çünki onun azad görmək istədiyi Qarabağ düşmən tapdağından Milli Ordumuzun rəşadəti hesabına azad olundu.



Zəfər ORUCOĞLU.

